# MİRZƏYEV İLQAR ANZOR OĞLU



İlqar Anzor oğlu Mirzəyev 8 may 1973-cü ildə Gürcüstan Respublikasının Qardabani şəhərində anadan olmuşdur. 1980-ci ildə orta məktəbə daxil olmuş, 1990-cı ildə bitirmişdir. 1991-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunmuşdur. 1995-ci ildə Ali Hərbi Məktəbi bitirdikdən sonra leytenant rütbəsi ilə xidmətə başlamışdır. 2000-ci ildə hərbi xidmətdə fərqlənərək, bir çox uğura imza atmışdır. Komandir kimi diviziya birincisi olduqdan sonra ona vaxtından əvvəl mayor rütbəsi verilmişdir. 2003-2005-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında ixtisası üzrə təhsilini təkmilləşdirmişdir. Müxtəlif illərdə Bakı, Gəncə, Naxçıvan, Beyləqan, Goranboy və Şəmkir şəhərlərində hərbi xidmət etmişdir. Xidməti dövründə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)” yubiley medalları, “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalı, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı” medalı və “Qüsursuz xidmətə görə” medalının hər üç dərəcəsi ilə təltif olunmuşdur. 2016-cı ildə Aprel döyüşləri zamanı şücaət və qəhrəmanlıq göstərmiş, Polkovnik-Leytenant rütbəsindən Polkovnik rütbəsinə yüksəlmişdir. Peşəkar artilleriyaçı kimi 2019-cu il 23 fevral tarixində 3-cü Ordu korpusunun Artilleriya rəisi təyin olunmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin Polkovniki İlqar Mirzəyev 14 iyul 2020-ci ildə Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 15 iyul tarixində şəhid Bakı şəhərində yerləşən II Fəxri Xiyabanda dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalmışdır. AMEA-nın (Azərbaycan Milli Elmlər Akademiyası) Milli Azərbaycan Tarixi Muzeyinə şəhid polkovnik İlqar Mirzəyevin şəxsi əşyaları təqdim edilmişdir. Təqdim olunan şəxsi əşyalar arasında onun hərbi geyimi, papaq və çəkməsi, hərbi səhra çantası vardır. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi Təbriz Soltanlı tərəfindən şəhid polkovnikin barelyefi hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə polkovnik İlqar Mirzəyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə ölümündən sonra “Azərbaycan Milli Qəhrəmanı” fəxri adına layiq görülmüşdür.